BAKI FOND BİRJASI

***MƏTBUAT ÜÇÜN MƏLUMAT***
***Bakı 28.04.2022***

**Aqrar Universitetinin tələbələrinə "Qiymətli kağızların buraxılışı və Bakı Fond Birjasının ticarətinin təşkili" mövzularında onlayn sertifikatlı təlim keçirilmişdir**

28 aprel 2022-ci il tarixində Aqrar universitetinin tələbələrinə "Qiymətli kağızların buraxılışı və Bakı Fond Birjasının ticarətinin təşkili" mövzularınnda onlayn sertifikatlı təlim keçirilmişdir.

Təlimdə Bakı Fond Birjası və Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən kapital bazarları, qiymətli kağızların buraxılışı və Bakı Fond Birjasının ticarətinin təşkili barədə təqdimat keçirilmişdir.

Qeyd edək ki, Bakı Fond Birjası Listinq Məsləhət Proqramının tərəfdaşı olan təhsil qurumları ilə birlikdə davamlı olaraq kapital bazarları ilə bağlı mövzularda təlimlər təşkil edir. Bu kimi keçirilən təlimlərin əsas məqsədi kapital bazarları ilə bağlı nəzəri və praktiki biliklərə sahib kadrların yetişdirilməsinə dəstək olmaqdır.